https://doi.org/10.33864/3105-7020.2025.n2.28-36
UOT: 613.888: 618.2

Qadınlar arasında kontraseptiv vasitələrdən istifadənin xüsusiyyətləri, tezliyi və davranışlarının tibbi, sosial, teoloji aspektlərdə motivasiyası imkanları

K.Ə.Babayev, V.F.Babayeva, K.H.Həbibova
Azərbaycan Tibb Universiteti,
İctimai sağlamlıq və Səhiyyənin Təşkili kafedrası, Bakı

E-mail: kamala_gabibova@mail.ru

Xülasə. Tədqiqatın məqsədi kontraseptiv vasitələrin abortun qarşısının alınmasına, ailə planlaşdırılmasına və qadınların reproduktiv sağlamlığına təsirini, həmçinin bu vasitələrdən istifadə üzrə maarifləndirmə səviyyəsini qiymətləndirməkdir. Araşdırmanın materialını reproduktiv sağlamlıq, ailə planlaşdırılması və sosial-demoqrafik göstəricilər təşkil etmişdir. Bakı şəhərində qadınlar arasında seçmə üsulla aparılan sorğu 150 nəfəri əhatə etmişdir. Kontraseptivlərin düzgün və müntəzəm istifadəsi effektiv ailə planlaşdırılmasına, arzuolunmaz hamiləliklərin və abortların qarşısının alınmasına şərait yaradır. Ailələrin maddi vəziyyəti, planlaşdırılmış uşaq sayı və reproduktiv davranış əsas tədqiqat materialı olmuşdur. Statistik analiz qadınların maddi durumu, təhsil səviyyəsi, fiziki aktivliyi və yaşı ilə kontraseptivlərə münasibət arasındakı əlaqəni qiymətləndirməyə imkan vermişdir. Məqalədə psixoterapevtik yanaşmanın və abortla mübarizədə tibb işçiləri ilə hamilə qadınlara motivasion tövsiyələrin əhəmiyyəti vurğulanır.

Açar sözlər: reproduktiv sağlamlıq, ailə planlaşdırılması, kontraseptivlər, abort, maarifləndirmə.

Müasir dövrdə ailə planlaşdırılması həm əhalinin həyat keyfiyyətini yüksəldən, həm də demoqrafik problemlərin qarşısını alan əsas amillərdəndir. Bu məsələ, əslində, milli təhlükəsizliklə [15]. də bağlıdır. Bir çox ölkələrdə reproduktiv sağlamlığın yaxşılaşdırılması və demoqrafik göstəricilərin artırılması üçün müxtəlif proqramlar tətbiq olunsa [14, 17]. da, tam rasional ailə planlaşdırılmasına hələ heç yerdə nail olunmayıb. Nəticədə istənməyən hamiləliklərin sayı artır, bu isə həm tibbi xərcləri, həm də qadınlarda və ailələrdə emosional gərginliyi yüksəldir, abortların çoxalmasına səbəb olur[19, 20]. ÜST-nin məlumatına görə, dünyada hər il 200 milyon qadın hamilə qalır və onların yalnız təxminən 128 milyonu doğuşla nəticələnir [16].

Effektiv ailə planlaşdırılmasının əsas şərtlərindən biri kontraseptivlərin istifadəsidir [4, 7, 11]. Lakin bu qədər önəmli olmasına baxmayaraq, kontraseptiv tətbiqi göstəriciləri hələ də aşağıdır. Arzuolunmaz hamiləlik riski daşıyan bir çox qadın heç bir qoruyucu vasitədən istifadə etmir [18]. Bunun əsas səbəbləri isə kontraseptivlərə inamsızlıq, mümkün yan təsirlərdən ehtiyat etmə və oxşar narahatlıqlardır [13].

Səhiyyə orqanlarının ən prioritet problemi qadınların reproduktiv sağlamlığının qorunması və möhkəmləndirilməsidir. Qadınların reproduktiv sağlamlığının əlverişsiz olması bir çox ölkələrdə sosial-demoqrafik proseslərə təsir edir ki, bu reproduktiv potensialı zəiflədən bir sıra neqativ amillər - müxtəlif

xəstələnmələr, səmərəsiz ailə planlaşdırılması, sonsuzluq və ana ölümünə səbəb olan abortlar, sosial və ailə problemləri, ailənin dağılması və s. əsas rol oynayır. Buna görə də bir çox ölkələrdə ailə planlaşdırılmasına ciddi diqqət yetirilir. Ailə planlaşdırılmasının effektivliyi ilk növbədə ər-arvadın kontraseptiv vasitələrdən (KV) rasional istifadə etmək istəyi və qabiliyyətindən asılıdır ki, bu da nəzərdə tutulan uşaqların sayını çoxaltmağa, arzuolunmaz hamiləlikdən və bununla bağlı abortlardan qaçmağa imkan verir.

Ailə planlaşdırılması reproduktiv sağlamlığın əsas istiqamətlərindən biri olub hamiləliyin zamanlanmasının optimallaşdırılması və arzuolunmaz hamiləliklərin qarşısının alınması yolu ilə ana ölümünün azalmasına töhfə verir [3]. Kontraseptiv vasitələrin geniş tətbiq imkanlarına baxmayaraq, onların istifadəsi beynəlxalq səviyyədə aşağıdır; inkişaf etmiş ölkələrdə belə qadınların yarıdan çoxu müasir kontraseptivlərdən istifadə etmir [6, 9]. Azərbaycanda kontrasepsiya göstəriciləri nisbətən yüksək olsa da, istifadə standartlarına tam riayət olunmur [7].

Qlobal səviyyədə ailə planlaşdırılmasının səmərəsizliyi nəticəsində hamiləliklərin böyük hissəsi abortla başa çatır və bu proses ana ölümünün, ikincili sonsuzluğun və reproduktiv ağırlaşmaların əsas səbəblərindəndir [5, 8]. Dölün cinsiyyətinin erkən təyini selektiv abort hallarını artırmış, Azərbaycanda oğlan və qız doğum nisbətinin ciddi şəkildə pozulmasına səbəb olmuşdur. 2020-ci ildə ölkədə 34 719 abort qeydə alınmışdır [10].

Abortların qarşısının alınması məqsədilə müasir kontraseptiv vasitələr barədə maarifləndirmə və onların tətbiqinin təşviqi xüsusi əhəmiyyət kəsb edir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə 58 min abort qeydə alınıb. Onlardan 14 min 900-ü mini abort, 500-ü dərman vasitələri ilə aparılan abortlar olub. 2023-cü ildə, Azərbaycanda 73 816 abort qeydə alınıb. 15-17 yaş üzrə 68, 18-19 yaş üzrə 2528, 20-24 yaş üzrə 12315, 25-29 yaş üzrə 22140, 30-34 yaş üzrə 22306, 35-49 yaş üzrə 14376 abort faktı qeydə alınıb. Həmçinin bildirilib ki, abortların ümumi sayında dərmanla aparılanların sayı 630, birinci hamiləliyin pozulması ilə nəticələnənlərin sayı isə 2203 olub [22]. 2024-cü ildə isə abort sayı 78 245-ə çatıb. Onların 72 nəfəri 15-17 yaş, 2679 nəfəri isə 18-19 yaş arasında olan qadınlardır [23].

Eyni zamanda, 2023-cü il üzrə doğulmuş körpələrdən 112 620-si göstərilir: onlardan 59 814-ü oğlan, 52 806-sı isə qızdır. Bu isə 100 qıza 113 oğlan düşməsi deməkdir. Statistika göstərir ki, abortların sayı 2021-ci ildə 46 877, 2022-ci ildə 57 999, 2023-cü ildə isə 73 816 olub. 15-49 yaşlı hər 1 000 qadına düşən abortların sayı 27,9 olub [24]. 2022-ci ildə bu göstərici 100 qıza 112 oğlan idi. [21]

Göründüyü kimi, abortların ümumi sayı (2023-2024) artmaqda davam edir. Doğulan körpələr arasında oğlan-qız nisbətində hələ də 113:100 kimi ciddi meyl qalır – bu da normadan (təxminən 105-106 oğlan/100 qız) uzaqdır. Bu göstəricilər əvvəl qeyd olunan vəziyyətin – yəni dölün cinsiyyətinin erkən təyini və selektiv abortların – hələ də ölkədə geniş yayılması mümkünlüyünü göstərir.

Müasir, sivil görünən cəmiyyətin xüsusilə selektiv abortla bağlı artan statistik dinamikası ilə, əsrlərlə öncə ilahi xəbərdarlığın- "Diri-diri torpağa basdırılmış qız uşağı soruşulacağı zaman – hansı günaha görə öldürülmüşdür" (ət-Təkvir «Sarınma» surəsi, 8-9) yönəldiyi cahiliyyyə toplumunun yaşam tərzində sanki bir bənzərlik müşahidə olunmaqdadır. Görünən odur ki, dəyişən sadəcə zamandır, düşüncə deyildir. Düşüncə dəyişmədikcə, mənəviyyata, əxlaqi dəyərlərə köklənmədikcə, cəmiyyət hələ də ateizm ruhuna buxovlandıqca toxunulan mövzuya bənzər problemlər daha da artacaq, böhran dərinləşəcəkdir.

Mama-ginekoloji yardım sistemində aparıcı yer tutan qadın məsləhətxanasının əsas profilaktik iş elementlərindən biri də məhz abortlara qarşı mübarizə aparmaqla qadınların sanitar-gigiyenik tərbiyəsini gücləndirmək və sağlam həyat tərzini təbliğ etməkdir. Qadın məsləhətxanasının əsas vəzifələri sırasında kontrasepsiya və abortların profilaktikası üzrə tədbirlərin öyrənilməsi yer alır. Bu istiqamətdə həkim mama-ginekoloq, mama ilə birlikdə qadınların doğuş və analıq funksiyalarını yerinə yetirməyə hazırladıqda hamilə qadınlarla psixoprofilaktik işi mənəvi dəyərlər üzərində qurmağa çalışmalıdırlar **[1].**

Ümumilikdə, aborta yanaşma dinlərdə də öz əksini tapmışdır. Din və tibb həmişə insana yaxın olub. Onlar onun ümidi və xilası kimi xidmət edirdilər. Dində insan özünü və bu dünyada taleyini bilir, əxlaqi sıxıntıların öhdəsindən gəlir, mənəvi cəhətdən zənginləşirdi. Tibb isə insanın özünün bacarmadığı hallarda həm fiziki, həm də ruhi müalicə ilə məşğul olurdu. Öz spesifikliyinə görə, bu iki cərəyanın toqquşmağa başladığı və hətta bir insanın seçimi üçün rəqabət apardığı məqamlar yaranmağa başladı [12].

Tədqiqatın material və metodları. Tədqiqatın aparılması üçün müəyyən edilmiş məqsəd və vəzifələrə uyğun olaraq kəmiyyət və keyfiyyət xarakterli məlumatlar toplanmış və təhlil edilmişdir. Araşdırmanın materialını reproduktiv sağlamlıq, ailə planlaşdırılması və sosial-demoqrafik göstəricilərlə bağlı məlumatlar təşkil etmişdir. Bakı şəhərində qadınlar arasında seçmə üsulla aparılmış sorğu 150 nəfəri əhatə etmişdir. Qadınların kontraseptivlərdən daimi və düzgün istifadə etmələri ilə effektiv ailə planlaşdırılması, arzuolunmaz hamiləlik riskinin və bununla bağlı abortların qarşısının alınmasında mühüm profilaktik üsuldur. Bu baxımdan öncə qadınların ailəni planlaşdırmaq məqsədilə hamiləlik əleyhinə müdafiə vasitələrinə və kontraseptivlərə münasibətlərinin öyrənilməsi tədqiqatın materiallarını formalaşdırmışdır. Məlumat mənbələri kimi sorğu nəticələri, statistik göstəricilər, tibb müəssisələrinin müvafiq qeydləri və elmi ədəbiyyat istifadə edilmişdir. Ailələrin maddi vəziyyəti, planlaşdırılmış uşaq sayı, reproduktiv davranış və sağlamlıq göstəriciləri əsas araşdırma materialını təşkil etmişdir. Statistik hesablamalarda qadınların maddi durumu, təhsil səviyyəsi, fiziki aktivliyi və yaş qrupları ilə hamiləlik əleyhinə müdafiə vasitələrinə və kontraseptivlərə münasibət arasında əlaqənin aşkarlanması, bu hadisələrin bir-birinə təsir imkanlarının qiymətləndirilməsinə zəmin hazırlamış olur.

Tədqiqat işi dizayna görə - analitik; üsuluna görə - klinik; həcminə görə - generalizə olunmuş; növünə görə - elmi; materialına görə - prospektiv; müddətinə görə - eninə; yerinə görə – klinikadankənar planlaşdırılmışdır. Statistik araşdırmalar diskriminant analiz üsullarının tətbiqi ilə "IBM Statistics SPSS-26" proqramlarında aparılmışdır. Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarından (Chi-square Pearson) istifadə olunmuşdur. Müvafiqlik əmsalının hesablanması metodikası-alqoritm üzrə hadisələr arasında əlaqənin mövcudluğunun təyini üçün, hesablamadan alınmış χ^2-nın qiyməti ilə standart qiymətinin (χ^2_{st}) sərbəstlik dərəcəsindən ($n^{/}$) istifadə etməklə müqayisəsi aparılmışdır. Bu alqoritmin sonuncu mərhələsi isə "sıfır hipotezi"nin müəyyənləşdirilməsidir. "0 hipotezi"nin inkarı üçün $p < 0,050$ sərhədi seçilmişdir. Yəni, bu halda əlamətlər arasında əlaqənin olması ehtimal olunur.

Nəticə və müzakirələr. Qadınların gələcəkdə ailə həyatında, analıq fəaliyyətində başlıca rol oynayacaq amilllərdən biri təhsil səviyyəsinin dəyərləndirilməsidir. Respondentlərin təhsil səviyyəsi 4 qradasiya ilə əhatə olunmuşdur: 1.Orta natamam, 2. Orta, 3. Natamam ali, 4. Ali. Təhsil səviyyəsi ilə reproduktiv sağlamlığın məlumatlılığı arasında asılılığa (Cədvəl 1) diqqət yetirdikdə respondentlər arasında ali təhsillilərin daha çox paya 40,66% malik olduğu görülmüşdür. Reproduktiv sağlamlıq haqda məlumatlılığa ali təhsillilərdən 10 nəfər (16.4%) tam, 35 nəfər (57.4%) lazımı qədər, 11 nəfər (18.0%) natamam və 5 nəfər (8.2%) isə ali təhsilli olmağına baxmayaraq zəif malik olmalarını qeyd etmişlər.

Reproduktiv sağlamlığın məlumatlılığı tam olanların payı təhsil səviyyəsinin artımına müvafiq dəyişmişdir. Lazımı qədər məlumatlılığını qiymətləndirənlərin sayı da təhsil səviyyəsinin artımına müvafiq dəyişmişdir. Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarı, sərbəstlik dərəcəsi və tezlik müvafiq qaydada tərəddüd etmişdir: (x^2-20,035; n'=9; p<0,018). Məlumat mənbəyini hansı amillərin təşkil etməsi müəyyənləşdirmək üçün sorğuda "kütləvi informasiya vasitələri", "televizor", "radio", "internet", "həkimlər" və "ətrafdakılar" kimi sual blokları qoyulmuşdur.

Öz sağlamlığınızı necə qiymətləndirirsiniz sorğusunda resspondentlərin cavabları aşağıdakı kimi əks olunmuşdur: 1.Praktik sağlam, 2. Nisbi sağlam, 3. Tez-tez xəstələnirəm, 4. Həkimlərə gedirəm, 5. Dərman qəbul edirəm.

Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarı, sərbəstlik dərəcəsi və rastgəlmə tezlikləri müvafiq qaydada tərəddüd etmişdir: ($KİV/x^2$ – 2.324; n'=3; p<0,508), ($TV, radio/x^2$ – 10.374; n'=3; p<0,016), ($internet/x^2$ – 0.401; n'=3; p<0,940), ($həkim/x^2$ – 3.402; n'=3; p<0,334), ($ətrafdakılar/x^2$ – 10.0.42; n'=3; p<0,018).

Təhsil səviyyəsinin yüksək olmasının sağlamlığa pozitiv təsir edəcəyini ehtimal etmək olar. Göründüyü kimi, bu ehtimal özünü statistik rəqəmlərlə doğrulayır. Belə ki ali təhsillilər arasında 18 nəfər (29.5%) "praktik sağlam" olduğunu, 31 nəfər (50,8%) isə "nisbi sağlam" olduğunu düşünür. Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarı, sərbəstlik dərəcəsi və tezlik müvafiq qaydada tərəddüd etmişdir: (x^2-20.035; n'=9; p<0,018).

Cədvəl 1
Təhsil səviyyəsi ilə reproduktiv sağlamlığın məlumatlılığı arasında asılılıq

Reproduktiv sağlamlığın məlumatlılığı	Təhsil								Cəmi
	Orta natamam		Orta		Natamam ali		Ali		
	müt	%	müt	%	müt	%	müt	%	
Tam	2	12.5	3	9.4	6	14.6	10	16.4	21
Lazımı qədər	2	12.5	16	50.0	15	36.6	35	57.4	68
Natamam	10	62.5	10	31.3	19	46.3	11	18.0	50
Zəif	2	12.5	3	9.4	1	2.4	5	8.2	11
Cəmi	16	100	32	100	41	100	61	100	150

Ailənin planlaşdırılmasında neçə uşaq planlaşdırmalarına münasibəti qadınlar aşağıdakı cavablarla əks etdirmişlər: 1 bir uşaq, 2. 2 uşaq, 3. 3 uşaq, 4. 4 uşaq, 5. 4 uşaqdan çox.

Təhsil səviyyəsi ilə uşaq planlaşdırma münasibətləri (Cədvəl 2) üzrə respondentlərin miqdarı uyğun olaraq, orta natamam-16 n (10,8%), orta-32 nəfər (21,6%), natamam ali-41 nəfər (27,7%) və ali-59 nəfər (39,8%) olmuşdur. Göründüyü kimi üstün paya tələbələr və ali təhsillilər malik olmuşlar ki, bu da ailə planlaşdırılmasına bu kateqoriyadan olanların daha doğru yanaşmalarına, töhfə verəcəklərinə ümid etməyə imkan vermiş olur. Təhsil səviyyəsi ilə uşaq planlaşdırma arasında asılılıq vəziyyəti aşağıdakı kimi tərəddüd etmişdir. Ailədə 1 uşaq arzu edənlər arasında 24 nəfər (58,5%) natamam ali, 16 nəfər (26.2%) ali təhsillilər olmuşlar.

Cədvəl 2
Təhsil səviyyəsi ilə uşaq planlaşdırma arasında asılılıq

Planlaşdırılmış uşaq sayı	Göstəricilər		Təshil			
			1	2	3	4
	1	Müt.r	2	7	24	16
		%	12,5	21,9	58,5	26,2
	2	Müt.r	7	15	10	28
		%	43,8	46,9	24,4	45,9
	3	Müt.r	6	6	4	7
		%	37,5	18,8	9,8	11,5
	4	Müt.r	1	4	3	5
		%	6,3	12,5	7,3	8,2
	5	Müt.r	0	0	0	3

		%	0	0	0	4,9

Natamam orta təhsillilərin 2 nəfər (12,5%) və orta təhsillilərin 7 nəfər (21,9%) kəmiyyətcə miqdarı az olmuşdur. Ailədə 2 uşaq planlaşdıranlar arasında 7 nəfər (43,8%) orta natamam, 15 nəfər (46,%) orta, 10 nəfər (24,4%) natamam ali, 28 nəfər (45,9%) isə ali təhsilli olmuşdur. 3 uşaq planlaşdıranlar arasında 6 nəfər (37,5%) orta natamam, 6 nəfər (18,8%) orta, 4 nəfər (9,8%) natamam ali, 7 nəfər (11,5%) isə ali təhsilli olmuşdur. Göründüyü kimi, ailədə 3, 4 və 4 uşaqdan çox planlaşdırmağa maraq göstərilmir. 4 uşaq planlaşdıranlar arasında 1 nəfər (6,3%) orta natamam, 4 nəfər (12,5%) orta, 3 nəfər (7,3%) natamam ali, 5 nəfər (8,2%) isə ali təhsilli olmuşdur. 4-dən çox uşaq planlaşdıranlar arasında isə yalnız 3 nəfər (4,9%) ali təhsilli istisna olmaqla digər qruplarda planlaşdırma olmamışdır: 0 (0,0%).

Uşaqların sayının daha çox 2 olmasının mental asılılığı statistik rəqəmlərdə əks olunur. Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarı, sərbəstlik dərəcəsi və tezlik müvafiq qaydada tərəddüd etmişdir: (x^2-30,611; n'=15; p<0,010). Səbəbi öyrənildikdə sorğu iştirakçılarının maddi durumun aşağı olması, doğum və təhsil xərclərinin baha olmasını əsas göstərmələri ailə planlaşdırılmasında qeyri-müəyyən davranışlara gətirib çıxarır. Bununla bağlı maddi vəziyyəti ilə ailədə planlaşdırılan uşaqların sayı (Cədvəl 3) arasında korrelyasiya diqqəti cəlb edir. Cədvəl 3-də əks olunduğu kimi maddi vəziyyəti – 1. Aşağıdır (5n-3,3%), 2. Lazımı səviyyədə deyil (31n-20,6%), 3. Qənaətbəxş (73n-48,6%), 4. Yaxşıdır (41n-27,3%)-cəmi 150 nəfər (100%) hamısı cavablandırmışlar.

Cədvəl 3
Ailənin maddi vəziyyəti ilə planlaşdırılan uşaqların sayı arasında asılılıq

Planlaşdırılmış uşaq sayı		Maddi vəziyyət			
		1 Aşağıdır	**2** Lazımı səviyyədə deyil	**3** Qənaətbəxş	**4** Yaxşıdır
1. Bir uşaq	Müt rəq	5	11	19	14
	Tezlik P %	100,0%	37,9%	26,0%	32,6%
2. 2 uşaq	Müt rəq	0	5	37	18
	Tezlik P %	0,0%	17,2%	50,7%	41,9%
3. 3 uşaq	Müt rəq	0	8	9	6
	Tezlik P %	0,0%	27,6%	12,3%	14,0%
4. 4 uşaq	Müt rəq	0	5	5	3
	Tezlik P %	0,0%	17,2%	6,8%	7,0%
5. 4 uşaqdan çox	Müt rəq	0	0	3	0
	Tezlik P %	0,0%	0,0%	4,1%	0,0%

Neçə uşaq planlaşdırmağı doğmağı istəyirsiniz sualına belə cavab verilmişdir**:** 1 Bir uşaq (49 n-32.6%), 2. 2 uşaq (60 n-40%), 3. 3 uşaq (23n-15.3%), 4. 4 uşaq (13n-8.6%), 5. 4 uşaqdan çox (3n-2%)-cəmi 150 nəfərdən 148-i bu suala cavab vermişdir.

Şəkildə əks olunduğu kimi, ailədə maddi vəziyyəti "aşağı" olanlar 5 nəfər (100%) 1 uşaq planlaşdırmışlar. Ailədə maddi vəziyyəti "lazımi səviyyədə olmayanlar" arasında 11 nəfər (38%) 1 uşaq, 5 nəfər (17%) 2 uşaq, 8 nəfər (28%) 3 uşaq, 5 nəfər (17%) 4 uşaq planlaşdırmışlar. Bu qrupda 4 uşaqdan çox planlaşdıran olmamışdır.

Ailədə maddi vəziyyəti "qənaətbəxş" olanlar arasında 19 nəfər (26%) 1 uşaq, 37 nəfər (51%) 2 uşaq, 9 nəfər (12%) 3 uşaq, 5 nəfər (7%) 4 uşaq və 3 nəfər (4.1%) 4 uşaqdan çox planlaşdırmışlar. Ailədə maddi vəziyyəti "yaxşı" olanlar arasında 14 nəfər (33%) 1 uşaq, 5 nəfər (42%) 2 uşaq, 6 nəfər (14%) 3 uşaq, 3 nəfər (7%) 4 uşaq planlaşdırmışlar. Yalnız ailədə maddi vəziyyəti "qənaətbəxş" olanlar arasında 3 nəfər (4.1%) 4 uşaqdan çox planlaşdırmışlar. Deməli ailədə rasional olaraq çox uşaq planlaşdırmanın vəziyyətinə maddi durum bilavasitə təsir göstərən amildir. Keyfiyyət göstəricilərinin müqayisəsi üçün χ^2-meyarı, sərbəstlik dərəcəsi və tezlik müvafiq qaydada tərəddüd etmişdir: (x^2-31,591; n'=15; p<0,007). Ümumilikdə, ailənin maddi vəziyyəti nə qədər stabil və yüksək olarsa, uşaqların sayı bir o qədər planlı və çox olur. Maddi çatışmazlıq isə ailələrin uşaq sayını məhdudlaşdırmasına və planlaşdırmada ehtiyatlı davranmasına səbəb olur.



Şəkil. Ailənin maddi vəziyyəti ilə planlaşdırılmış uşaq sayının səciyyəsi

Əxlaqi-mənəvi dəyərlərin – inancların ailədə çox uşaq planlaşdırmanın vəziyyətinə təsiri digər bir sorğuda [1] respondentlərin ayinlərin icrası ilə ailə tərkibinin asılılığına uyğun olaraq öyrənilmişdir. Ayinlərin icrası ilə ailə tərkibinin asılılığına (Cədvəl 4) diqqət yetirdikdə, 698 nəfərin ailə tərkibini əks etdirdiyini, o cümlədən ailənin iki – yalnız ər, arvad, üç – ata, ana, övlad, dörd – ata, ana və iki övlad və beş, beşdən çox – ata, ana ilə birlikdə üç, dörd, daha çox uşağın olmasını qeyd etməsi müşahidə olunur. Ayinlərə tam (51,0±2,7) və hissəvi (50,5±2,9) riayət edənlərin daha çox ailə tərkibinə malik olması məntiqi nəticəyə gəlməyə əsas verir (Cədvəl 4). Riayət etməyənlər arasında da ailə tərkibinin çoxluğu (60,4±7,1) milli-mental və mənəvi dəyərlərin vəhdətini əks etdirir.

Dörd, beş və daha çox uşaqlı olan respondentlər uşaqların sayının çox olmasının məqsədəuyğun olduğunu qeyd etməklə hədislərdən nümunələr gətirmişlər. Göründüyü kimi, ailə planlaşdırılmasında dini inancın mühüm təsiri statistik hesablamalarda özünü əks etdirmiş olur. Belə ki, arzuolunmaz hamiləlik halları olmuş olsa da Qurani-Kərimdə və hədislərdə abortun yolverilməz olması məlumdur. Quranda "Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır" (17:31) deyildiyi, Peyğəmbərin müsəlmanlığı yeni

qəbul etmiş qadınlarla "övladlarını öldürməmələri.." barədə andlaşdığı halda, ananın həyatı üçün təhlükə yaranarsa aborta icazə verilmişdir [1].

Allah elçisinin "Cahilliyyə dövrü"nün insan həyatına son qoyan, dəyər verməyən adət-ənənələrinə, cəhalətə qarşı mübarizəsi, bu bataqlığı qurutmağa çalışması, haqq uğrunda savaşı toplumu maarifləndirməklə həyata keçirilirdi. İbn Abbas demişdir: "Ərəblərin cahilliyinin necə keçdiyini bilmək istəyirsinizsə, əl-Ənam surəsinin yüz otuzuncu ayəsindən sonrakı ayəni oxuyun: "Axmaqlıqları üzündən, dərk etmədən öz övladlarını öldürən və Allahın onlara verdiyi ruzini, Allaha iftira ataraq haram edənlər, əlbəttə, ziyana uğramışlar. Onlar azdılar və doğru yola yönəlmədilər" [6:140] [1].

Bir çox müəlliflərin fikrincə, süni abort qadın sağlamlığı üçün ən təhlükəli cərrahi müdaxilələrdən biridir. Abort orqanizmdə ciddi dəyişikliklərə səbəb olur, iltihabi xəstəliklərin, aybaşı-ovarial sikl pozuntularının riskini artırır. Abortdan sonra ağırlaşmalar 30%-ə çatır. Tədqiqatçılar abortun reproduktiv funksiyaya mənfi təsir etdiyini, düşüklər, uşaqlıqdankənar hamiləlik, sonsuzluq və iltihabi proseslərlə müşayiət olunduğunu bildirirlər. İkincili sonsuzluğun 50%-dən çoxu məhz abortdan sonra yaranan xəstəliklərlə bağlıdır [2].

Cədvəl 4
Ayinlərin icrası ilə ailə tərkibinin asılılığı

Ailə tərkibi	Ayinlərə riayətin tamlığı							
	Bəli		Hissəvi		Xeyr		Cəmi	
	Müt.r.	P±m	Müt.r.	P±m	Müt.r.	P±m	Müt.r.	%
1.iki	22	6,3±1,3	15	5,0±1,3	1	2,1±2,1	38	5,4
2.üç	45	12,8±1,8	26	8,7±1,6	3	6,3±3,5	74	10,6
3.dörd	105	29,9±2,4	107	35,8±2,8	29	60,4±7,1	241	34,5
4.beş və çox	179	51,0±2,7	151	50,5±2,9	15	31,3±6,7	345	49,4
Cəmi	351	50,3	299	42,8	48	6,8	698	100

Öncə qeyd edildiyi kimi qadın məsləhətxanasının əsas vəzifələri sırasında kontrasepsiya və abortların profilaktikası üzrə tədbirlərin həyata keçirilməsi yer alir. Bu istiqamətdə həkim mama-ginekoloq, mama ilə birlikdə qadınları doğuş və analıq funksiyalarını yerinə yetirməyə hazırladıqda hamilə qadınlara psixoprofilaktik işi mənəvi dəyərlər üzərində qurmağa çalışmalıdırlar. Bu yanaşma ümidvarıq ki qadınların reproduktiv fəaliyyətində, müasir kontraseptiv imkanlardan faydalanmaqla sağlamlığı təhdid edən abortla mübarizədə əsas mənəvi dayağı olacaqdır [1].

ƏDƏBİYYAT

1. Babayev KƏ., Aslanova N.F., Həbibova K.H. Ailə planlaşdırılmasında və abortla mübarizədəkontraseptivlərin poluna tibbi, sosial və teoloji baxışlar. Azərbaycan təbabətinin müasir nailiyyətləri jurnalı, 2023, №1, s. 69

2. Çobanov R.Ə., H. M. Xudaverdiyeva., M.M.Ələkbərov və b. Sosial-gigiyena və səhiyyənin təşkili. Bakı, 2007, s. 34

3. Demoqrafiya və sağlamlıq sorğusu, (İSİM, SN). Azərbaycan, 2011 yekun hesabat. Bakı-2013 s.70-71,330

4. Həmzəyev, M.A. Qadınların reproduktiv sağlamlığının demoqrafik və ailə-nikah aspektləri // Sağlamlıq, 2010. №3, s. 100-104
5. Muradov P. "Statistikanın ümumi nəzəriyyəsi" Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. S. 165-178
6. Reproduktiv sağlamlıq / ailə planlaşdırılması üzrə klinik protokollar. – B.: 2009, 142 s.
7. Балан, В.Е., Тихомирова Е.В. Контроль менструального цикла - эффективность и безопасность микродозированного монофазного комбинированного орального контрацептива // - Москва: Акушерство и гинекология, 2017, №3, с.124-129
8. Балалькин Д. А., Шок Взаимо дополняюм развитие нату фолософии и медицины // Главний врач : хозяйство и право, 2013, N02, с. 47-52
9. ВОЗ. Безопасный аборт: рекомендации для систем здравоохранения по вопросам политики и практики. 2-е издание. Женева, ВОЗ, 2012. с. 132
10. ВОЗ. Медицинские критерии приемлемости для использования методов контрацепции, 5-е издание. – Женева: ВОЗ, 2015. с. 185
11. Подрезова А.А. Отношение студентов-медиков к позиции русской православной церкви по вопросам абортов // Научный альманах, 2020, N 4-3
12. Рябышева, Л.В., Макарова, О.Н. Влияние репродуктивного здоровья на демографическую ситуацию в стране // II международная научная конференция «Медицина и здравоохранение». Уфа, 24 мая, 2014, с. 3-5
13. Сухарев Е.С. Планирование семьи: влияние внешних и внутренних факторов // Человек. Общество. Инклюзия. 2024. №1, с. 8-18
14. Тутынина О.В. Поздняя материнская смертность: проблемы, поиски, решения / О.В. Тутынина, А.Т.Егорова, К.А.Виноградов // Сибирское медицинское обозрение, 2008, №2 (50), с. 20-27
15. Шувалова М.П., Письменская Т.В., Закраилова М.А. Направление современного развития первичного звена акушерского-гинекологической помощи // Акушерство и гинекология, 2017, №1, с. 78-82
16. Jones J., Mosher W., Daniles K.Current contraceptive use in the United States, 2006-2010, and changes in patterns of use since 1995 // National Health Statistics Reports, 2012, 60
17. Lopez L.M., Kaptein A.A., Helmerhorse F.M. Oral contraceptives containing drospirenone for premenstrual syndrome // Cochrane Database Syst. Rev., 2012, 15(2), CD006586
18. Pazol K., Creanga A.A., Zone S.B. et al. Centers for disease Control and Prevention [CDC]. Abortion surveillance - United States // Wkly Rep. Surveill. Summ., 2020, 69 (7), p.1-29
19. https://anews.az/az/read/446995/
20. https://apa.az/sosial/2023-cu-ilde-azerbaycanda-73-minden-cox-abort-qeyde-alinib-842901
21. https://qlobal.az/az/abortlarin-qorxulu-yas-statistikasi-sebebler-aciqlandi/
22. https://sia.az/az/news/event/1157860.html

Характеристики, частота и мотивация использования контрацептивов среди женщин в медицинском, социальном и теологическом аспектах.

К.А. Бабаев, В.Ф. Бабаева, К.Х. Хабибова
Азербайджанский медицинский университет,
кафедра общественного здравоохранения и организации здравоохранения, Баку

Резюме. Цель исследования – оценить влияние контрацептивов на профилактику абортов, планирование семьи и репродуктивное здоровье женщин, а также уровень осведомленности об их использовании. Материал исследования включал показатели репродуктивного здоровья, планирования семьи и социально-демографические показатели. Выборочное обследование женщин в Баку охватило 150 человек. Правильное и регулярное использование контрацептивов создает условия для эффективного планирования семьи, предотвращения нежелательных беременностей и абортов. Основным материалом исследования являлись финансовое положение семей, планируемое количество детей и репродуктивное поведение. Статистический анализ позволил оценить взаимосвязь между финансовым положением женщин, уровнем образования, физической активностью и возрастом и отношением к контрацептивам. В статье подчеркивается важность психотерапевтического подхода и мотивационных рекомендаций для медицинских работников и беременных женщин в борьбе с абортами.

Ключевые слова: репродуктивное здоровье, планирование семьи, контрацептивы, аборт, осведомленность.

Characteristics, frequency, and motivations of contraceptive use among women in medical, social, and theological aspects

K.A. Babayev, V.F. Babayeva, K.H. Habibova
Azerbaijan Medical University, Department of Public Health and Health Organization, Baku

Summary. The aim of the study is to assess the impact of contraceptives on abortion prevention, family planning and women's reproductive health, as well as the level of awareness on their use. The material of the study consisted of reproductive health, family planning and socio-demographic indicators. A sample survey conducted among women in Baku covered 150 people. Correct and regular use of contraceptives creates conditions for effective family planning, prevention of unwanted pregnancies and abortions. The financial status of families, planned number of children and reproductive behavior were the main research material. Statistical analysis allowed to assess the relationship between women's financial status, level of education, physical activity and age and attitude towards contraceptives. The article emphasizes the importance of a psychotherapeutic approach and motivational recommendations to medical workers and pregnant women in the fight against abortion.

Key words: reproductive health, family planning, contraceptives, abortion, awareness.

Daxil olub: 28.08.2025